# Gənclər siyasəti üçün özünü dəyərləndirmə aləti



Youth – Jeunesse

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

*The opinions expressed in this work are the responsibility of the authors and do not necessarily reflect the official policy of the Council of Europe.*

All requests concerning the reproduction or translation of all or part of this document should be addressed to the Directorate of Communication (F-67075 Strasbourg Cedex or publishing@coe.int). All other correspondence concerning this document should be addressed to the Directorate General of Democracy – Youth Department (youth@coe.int).

Cover and layout: Documents and Publications Production Department (SPDP), Council of Europe

Photos: © Council of Europe

© Council of Europe, August 2019

Printed at the Council of Europe



# Giriş

Avropa Şurasının gənclik sahəsindəki hökumətlərarası əməkdaşlığının prioritetlərindən biri gənclər siyasətlərinin təşviqi və dəstəklənməsidir.

Bu, 50 üzv dövlətin gənclər məsələləri ilə məşğul olan nazirliklərinin və ya qurumlarının nümayəndələrini Avropa Mədəniyyət Konvensiyası ətrafında birləşdirən Avropa Şurasının Gənclərlə iş üzrə daimi Komitəsinin (CDEJ) vəzifəsidir.

CDEJ gənclər sektorunda hökumətlər arasındakı əməkdaşlığı dəstəkləyir və milli gənclər siyasətlərinin müqayisə edilməsi, yaxşı praktikaların mübadiləsi və standartları müəyyənləşdirən mətnlərin hazırlanması üçün çərçivəni təqdim edir.

Məhz bu kontekstdə CDEJ gənclər siyasətinin inkişafı üçün hazırki özünü dəyərləndirmə alətini rəsmən qəbul edib və üzv dövlətləri ondan istifadə etməyə və onu yaymağa çağırıb.

# Özünü dəyərləndirmə alətinin konteksti

Avropa Şurasının gənclər sektorundakı fəaliyyətini monitorinq etmək üçün monitorinq mexanizmləri olmadığından CDEJ zamanla əldə edilmiş irəliləyişləri dəyərləndirmək məqsədilə üzv dövlətlərinin hökumətləri tərəfindən “ölçü” meyarlarının və metodlarının inkişaf etdirilməsi sahəsində artan tələbatın olduğunu hiss edib.

Buna görə də CDEJ gənclər siyasəti üçün xüsusən də Nazirlər Komitəsinin qəbul etdiyi tövsiyələrə (və ya lazım gəldiyində Avropa Şurasının aidiyyəti qurumlarının qəbul etdiyi mətnlərə) əsaslanan keyfiyyət meyarları dəstinin hazırlanmasına ehtiyac duydu.

Gənclərin gənclər siyasətlərində zamanla əldə edilmiş irəliləyişləri görə bilməsi, lazım olan tənzimləmələri və ya düzəlişləri seçə bilməsi məqsədilə bu meyarlar çərçivəsində standart göstəriciləri olan özünü dəyərləndirmə aləti hazırlanmışdır.

Bu alət üzv dövlətlərə gənclər siyasəti üçün Avropa Şurası standartlarına uyğunluqlarını özləri tərəfindən dəyərləndirməyə yardım etmək və apardıqları gənclər siyasəti sahəsində irəliləyişlərə baza olmaq məqsədilə hazırlanmışdır.




# Avropa Şurasına görə ictimai gənclər siyasətinin əsas prinsipləri

İllər boyu Avropa Şurası gənclər siyasətlərini dəstəkləyə bilən müxtəlif prinsiplər, məqsədlər və dəyərlər ortaya qoymuşdur.

Avropa Şurasına görə istənilən ictimai gənclər siyasəti aşağıdakı prinsipləri təşviq etməlidir[1]:

a. Problemlərə yönəlik deyil fürsətlərə yol açaraq məntiqli və sinerjiyə əsaslanaraq məqsədyönlü şəkildə gənclərə yatırım etmək və bunun üçün xüsusən gənclər siyasətinin lazım gələn standartlarını və alətlərini hazırlamaq;

b. Gəncləri gənclər siyasətləri ilə bağlı strategiyaların hazırlanmasına və həmçinin siyasətin aparılmasının səmərəli operativliyi haqqında fikirlərini toplanmasına cəlb etmək;

c. Gənclərin həm iş bazarında həm də vətəndaş cəmiyyətində tam olaraq rol oynamaları üçün biliklərini, bacarıqlarını və səriştələrini inkişaf etdirməyə imkan verən öyrənməyə, fürsətə və təcrübəyə yol açan şərtləri hazırlamaq;

d. Həm gənclər siyasətlərinin səmərəliliyini göstərmək həm də bəzi zonalarda və ya bəzi şərtlərdə bəzi sosial qruplara aid gənclərə səmərəli xidmətlərin verilməsindəki "siyasət boşluqlarının" masştabını vurğulamaq üçün ciddi məlumat toplama sistemlərini qurmaq;

e. Mövcud olduqları yerlərdə bu "siyasət boşluqlarını" azaltmaq üçün çalışmaq;

Bu ümumi prinsiplər güclü siyasətin nədən ibarət olmasını göstərir. Üzv dövlətlər apardıqları siyasətlərin təsirini və səmərəliliyini monitorinq etməyə və qismən və ya tamamən səmərəsiz olduqları zaman onları düzəltnəyə (və ya onlardan əl çəkməyə) hazır olmağa dəvət edilirlər.

Lakin, hazırki özünü dəyərləndirmə aləti yuxarıda təsvir edilən gənclər siyasətlərinin əsas prinsiplərinə birbaşa toxunmur. Bu prinsiplərə uyğunluqlarını öz kontekstlərində (yerli, regional, milli və ya Avropa səviyyəsində) qiymətləndirməyi arzu edən bütün tərəflər Avropa Gənclər Forumu (AGF) tərəfindən hazırlanmış və yuxarıda göstərilmiş prinsiplərinin çoxunu əhatə edən keyfiyyət standartları ilə bağlı dəstdən istifadə etməyə dəvət edilirlər[2].

Hazırki özünü dəyərləndirmə alətinin məqsədi fərqlidir. Çünki o, əsasən Avropa Şurasının gənclər siyasəti ilə bağlı standartlarına uyğunluqdan bəhs edir.

1. Mənbə: "Avropa Şurası və gənclər siyasəti: üzv dövlətlərdə gənclər siyasətinin inkişafı üçün dəstək, yardım və qaynaqlar" (2016) Bu prinsiplər Avropa Şurasının gənclər siyasəti ilə bağlı bir sıra əsas mətnlərindən, xüsusən də Avropa Şurasının Gənclərlə iş üzrə daimi Komitəsinin (CDEJ) və Gənclərlə bağlı Məsləhət Şurasının (CCJ) sənədlərindən, Gənclər siyasəti ilə bağlı məcmuədən (2012) və 2003-cü ilin Gənclər siyasəti göstəricilərlə bağlı İşçi qrupuna istinad edilərək alınmışdır.
2. http://youthforum.org/8-standards.






# Avropa Şurasının gənclər siyasəti üçün əsas standartları

CDEJ-yə əsasən Avropa Şurasının gənclər siyasətinin əsas məqsədi təşkilatın əsas dəyərlərini (insan hüquqları, demokratiya və qanunun aliliyi) təşviq etmək olmalıdır.

Avropa Şurasının gənclər siyasətinin əsas altı müdaxilə sahəsi (bax. Xartiya) Avropa Şurasının gənclər sahəsində qəbul etdiyi standartlara (əsasən də Nazirlər Komitəsinin tövsiyələrinə) əsaslanır. Onlar təşkilat çərçivəsində gələcəkdə aparılacaq gənclər siyasətinin bazasını təşkil etməlidir.








# Özünü dəyərləndirmə alətini gənclər siyasəti üçün necə istifadə etmək olar?

Bu alətin məqsədi üzv dövlətlərin və həmçinin digər ictimai tərəflərin müxtəlif səviyyələrdə (yerli, regional, milli, beynəlxalq) Avropa Şurasının gənclərin iştirakı və inkişaf siyasətinin bazasını təşkil edən standartlarına uyğunluqlarını müdaxilənin altı sahəsinə əsaslanaraq (iştirak, məlumat, inteqrasiya, hüquqlara çıxış, gənclərlə iş və mobillik) özlərinin dəyərləndirməsidir.

Gəncləri Avropa dəyərləri və xüsusən də Avropa Şurasının əsas dəyərləri (insan hüquqları, qanunun aliliyi, demokratiya) ətrafında bir araya gətirməyə böyük ehtiyac var. Avropa Şurası gənclər siyasətinin paylaşılan Avropa dəyərlərinə və Avropaya aidlik hissinə əsaslanaraq başa düşülməsini həmişə dəstəkləyib. Buna görə də bu Avropa aspekti Avropa Şurasının gənclər siyasətinin altı müdaxilə sahəsi vasitəsilə təşviq edilməlidir.

Bu müdaxilə sahələrinin hər biri üçün sözü gedən alət spesifik və ölçülə bilən göstəriciləri təqdim edir. Üzv dövlətlər bunları istifadə edərək Avropa Şurasının əsas standartlarının (əsasən də Nazirlər Komitəsinin aidiyyəti tövsiyələrinin) tətbiq edilməsindəki irəliləyişləri görməyə başlaya bilərlər.

Özünü dəyərləndirmə meyarı hər göstəricidəki irəliləyişi ölçməyə imkan verir.

Avropa Şurasında istifadə edilən bənzər alətlər kimi[3], bu alətin də üzv dövlətlərə aşağıdakıları etməyə imkan verəcəyinə ümid edilir:

- gənclər siyasətinə həssaslığı artırmaq və onun başa düşülməsini təmin etmək;
- cari tətbiqlərin özləri tərəfindən elementar dəyərləndirilməsini həyata keçirmək;
- gələcək uyğunluğa nail olmaq üçün lazım olan ehtiyacları müəyyənləşdirməyə kömək etmək;
- yaxşı praktikaları ortaya çıxarmaq və paylaşmaq;
- illər ərzində əldə edilmiş irəliləyişi dəyərləndirmək.

Üzv dövlətlər lazım gəldiyində mütəmadi intervallarla Avropa Şurası standartlarına uyğunluqlarını özlərinin dəyərləndirmələri üçün bu alətdən dinamik şəkildə istifadə etməyə dəvət edilirlər. Bu məqsədlə sözü gedən alət istifadəçilərə gələcək irəliləyişə imkan verəcək müsbət trendləri və həmçinin təkmilləşdirmə və mümkün monitorinq sahələrini qeydə almağa imkan verir.

Alət əsasən gənclər siyasətinin dövlət kurasiyasında olduğu üzv dövlətlər üçün nəzərdə tutulub. Lakin aidiyyəti olan bir sıra səriştəli qurumlar arasında əlavə koordinasiya və komanda işi tələb etsə belə bu alət eyni zamanda federal dövlətlərdə və ya gənclərlə bağlı məsələlərin regional və yerli hakimiyyət orqanları tərəfindən idarə edildiyi ölkələrdə istifadə edilə bilər.

Avropada dəyərlərə əsaslanan gənclər siyasətinin inkişafını dəstəkləmək üçün üzv dövlətlərin bu aləti maraqlı tərəflərlə (məsələn, gənclərlə bağlı məsələlərdən məsul olan nazirliklər, digər nazirliklər, gənclər şuraları, regional və yerli hakimiyyət orqanları, gənclərlə işləyən aidiyyəti peşəkar işçi qruplar) paylaşması arzu edilir.

3. Bax. "Uşaqların iştirakının dəyərləndirilməsi aləti": Nazirlər Komitəsinin uşaqların və 18 yaşa qədər olan gənclərin iştirakı ilə bağlı üzv dövlətlərə CM/Rec(2012)2 saylı Tövsiyəsinin tətbiqində əldə edilmiş irəliləyişi ölçmək üçün özünü dəyərləndirmə aləti.

# Avropa Şurasının standartlarının tətbiq edilməsində əldə edilmiş irəliləyişləri dəyərləndirməyə imkan verən əsas göstəricilərin xülasəsi

| Müdaxilə sahəsi | Uyğun göstəricilər |
|---|---|
| İştirak | ► Gənclər siyasəti bütün gənclərin qərarların xüsusilə də onlardan bəhs edən qərarların qəbulunda fəal iştirakını asanlaşdırır və fəal vətəndaş kimi hərəkət etməsini dəstəkləyir.<br>► Hökumət gənclər təşkilatlarını, gənclər şuralarını və digər gənclər təşəbbüslərini və ya strukturlarını tanıyır və dəstəkləyir. |
| Məlumat | ► Gənclər siyasəti gənclərə uyğun məlumatların verilməsini, eyni zamanda bütün gənclərin bu məlumatlara həm onlayn həm də oflayn çıxışını asanlaşdırır.<br>► Gənclər siyasəti məlumatın idarə edilməsi üçün səriştələrin artırılmasında gənclərə fürsətlər yaradır. |
| İnteqrasiya | ► Gənclər siyasəti həyatın bütün sahələrində (təhsil və təlim, iş və məşğulluq, ev, səhiyyə, idman, asudə vaxt və mədəniyyət də daxildir) təhlükə altında olan gənclərin inteqrasiyasını təşviq edir.<br>► Gənclər siyasətinin məqsədi gəldikləri yerdən asılı olmayaraq gənclərin üzləşdiyi ayrı-seçkiliyin, şiddətin və kənarlaşdırmanın qarşısını almaqdır[4]. |
| Hüquqlara çıxış | ► Gənclər siyasəti bütün gənclərin hüquqlara daha səmərəli şəkildə çıxışını təşviq edir və asanlaşdırır, eyni zamanda hüquqi, inzibati və praktiki əngəlləri aradan qaldırır.<br>► Gənclər siyasəti beynəlxalq, milli, regional və yerli səviyyələrdə bütün aidiyyəti sahələrdə əməkdaşlıq vasitəsilə gənclərin hüquqlara çıxışını yaxşılaşdırmaq üçün koordinasiyalı yanaşmanı tövsiyə edir. |
| Gənclərlə iş | ► Gənclərlə keyfiyyətli işin təşkili və gələcək inkişafı yerli, regional və ya milli səviyyədə gənclər siyasətləri vasitəsilə qorunur və pro-aktiv şəkildə dəstəklənir.<br>► Ödənişli və ya könüllü şəkildə işləyən gənclərin səriştələri yüksək keyfiyyətli işin görülməsini təmin edir. |
| Mobillik | ► Gənclər siyasəti xüsusən də Avropaya aidlik hissini təşviq etmək üçün gənclərin mobilliyini dəstəkləyir.<br>► Gənclər siyasəti keyfiyyətli mobillik layihələrinin həyata keçirilməsini dəstəkləyir. |

4. Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü Maddəsində aydın olaraq göstərilmiş və ya Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ ilə müəyyən edilmiş formada.

## İŞTIRAK

| Müdaxilə sahəsi |
| --- |
| ► Hüquqi baza  Nazirlər Komitəsinin üzv dövlətlərə vətəndaşlıq və gənclərin ictimai həyatda iştirakı ilə bağlı Rec(2006)14 saylı Tövsiyəsi.<br>► Nazirlər Komitəsinin gənclərin yerli və regional həyatda iştirakına dair üzv dövlətlərə Rec(2004)13 saylı Tövsiyəsi<br>► Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Gənclərin yerli və regional həyatda iştirakı haqqında yenidən baxılmış Avropa Xartiyası<br>► Nazirlər Komitəsinin gənclər siyasətlərinin hazırlanmasında milli gənclər şuralarının roluna dair üzv dövlətlərə Rec(2006)1 saylı Tövsiyəsi<br>► Avropa İnsan Hüquqları Konvensiyası, maddə 11 (toplaşma və birləşmə azadlığı)<br>► Uşaqların və yaşı 18-dən aşağı olan gənclərin iştirakına dair Tövsiyə və onun Uşaqların iştirakının dəyərləndirilməsi aləti |
| **Göstərici 1** |
| Gənclər siyasəti bütün gənclərin qərarların xüsusilə də onlardan bəhs edən qərarların qəbulunda fəal iştirakını asanlaşdırır və fəal vətəndaş kimi hərəkət etməsini dəstəkləyir. |

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil[5] | Xeyr | Yaxşı praktikaya misallar |
| --- | --- | --- | --- | --- |
| Gənclər siyasəti gənclərin xüsusən də ictimai həyatda iştiraklarını artıracaq öyrənmə fürsətləri və təcrübə verərək fəal vətəndaş olmalarına yardım edir. | | | | |
| Uyğun strukturlar və ya tədbirlər həyata keçirilir və bunlar çətin vəziyyətdə olanlar da daxil olmaqla bütün gənclərin onlarla əlaqəli olan qərarlarda və müzakirələrdə iştirakına imkan verir. | | | | |
| Yerli, regional və milli səviyyələrdə səmərəli və innovativ iştirakla bağlı yaxşı praktikaların mübadiləsi və istifadəsi arzuediləndir. | | | | |

5. Və ya "davam edir".

| Göstərici 2 |
| --- |

Hökumət gənclər təşkilatlarını, gənclər şuralarını və digər gənclər təşəbbüslərini və ya strukturlarını tanıyır və dəstəkləyir.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
| --- | --- | --- | --- | --- |
| Gənclərin ümumi məqsədlər üçün başqaları ilə birləşərək kollektiv qurumlar yaratmaq hüququ təmin edilir. | | | | |
| Bunun üçün gənclər təşkilatları, şuralar və təşəbbüslər bu strukturların problemsiz və səmərəli fəaliyyətini təmin etmək üçün onları məkan, maddi vasitələr və material dəstəklə təmin edilir. | | | | |
| Müstəqil gənclər təşkilatları və gənclər şuraları yerli, regional və milli səviyyədə mövcuddur və gənclər siyasətinin hazırlanmasında və tətbiqində fəal rol oynayır. | | | | |

| Gələcək irəliləyişə imkan verəcək müsbət trendlər |
| --- |
| |

| Təkmilləşdirmə və mümkün monitorinq sahələri |
| --- |
| |

## MƏLUMAT

| Müdaxilə sahəsi |
|---|
| ▶ Hüquqi baza Gənclər haqqında məlumata dair Nazirlər Komitəsinin üzv dövlətlərə CM/Rec(2010)8 saylı Tövsiyəsi<br>▶ Nazirlər Komitəsinin Avropadakı gənclərə verilən məlumat və məsləhətlə bağlı R (90) 7 saylı Tövsiyəsi<br>▶ Avropa Şurasının digər aidiyyəti təşəbbüsləri:<br>– İnternetin idarəetmə strategiyası 2016-2019<br>– “Nifrət nitqi”nə dair Nazirlər Komitəsinin üzv dövlətlərə CM/Rec(97)20 saylı Tövsiyəsi<br>– “Nifrət nitqinə yox” Hərəkatı kampaniyası |

### Göstərici 1

Gənclər siyasəti gənclərə uyğun məlumatların verilməsini, eyni zamanda bütün gənclərin bu məlumatlara həm onlayn həm də oflayn çıxışını asanlaşdırır.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Gənclərlə bağlı məlumat və məsləhət xidmətləri yerli və regional səviyyələrdə verilir. | | | | |
| Gənclərlə bağlı məlumat və məsləhət xidmətləri milli səviyyədə verilir. | | | | |
| Gənclərlə bağlı məlumat forumları və kanalları yeni informasiya texnologiyaları da daxil olmaqla gənclərin artan ehtiyaclarına və istəklərinə uyğunlaşdırılıb. | | | | |
| Gənclər gənclərlə bağlı məlumat proqramları və kanallarının hazırlanmasına cəlb edilir. | | | | |
| Gənclərlə bağlı məlumatlar və məsləhət xidmətləri xüsusən çətin vəziyyətdə olan gənclərin ehtiyacları üçün nəzərdə tutulub. | | | | |

### Göstərici 2

Gənclər siyasəti məlumatın idarə edilməsi üçün səriştələrin artırılmasında gənclərə fürsətlər yaradır.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Tənqidi düşüncə də daxil olmaqla məlumat/rəqəmsal savad ənənəvi təhsilin bir hissəsidir. | | | | |
| Tənqidi düşüncə də daxil olmaqla məlumat/rəqəmsal savad ənənəvi və qeyri-ənənəvi təhsilin bir hissəsidir. | | | | |
| Gənclər siyasəti internetdəki məlumatın istifadəçisi və yaradıcı kimi həmçinin şəxsi məlumatların qorunması sahəsində üzləşdikləri risklərdən gənclərin həssas yanaşmalarını təmin edir. | | | | |

### Gələcək irəliləyişə imkan verəcək müsbət trendlər

### Təkmilləşdirmə və mümkün monitorinq sahələri

## İNTEQRASIYA

| Müdaxilə sahəsi |
|---|
| ▶ Hüquqi baza  Nazirlər Komitəsinin üzv dövlətlərə problemli məhəllələrdən olan gənclərin sosial hüquqlara çıxışına dair CM/Rec(2015)3 saylı Tövsiyəsi (ENTER).<br>▶ Gənclərin hüquqlara çıxışına dair Nazirlər Komitəsinin üzv dövlətlərə CM/Rec(2016)7 saylı Tövsiyəsi |

**Göstərici 1**

Gənclər siyasəti həyatın bütün sahələrində (təhsil və təlim, iş və məşğulluq, ev, səhiyyə, idman, asudə vaxt və mədəniyyət də daxildir) təhlükə altında olan gənclərin inteqrasiyasını təşviq edir.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Gənclər siyasəti əsasən çətin vəziyyətdə olan gənclərin ehtiyaclarını nəzərə alır. | | | | |
| Bütün gənclərin inteqrasiyasını xüsusən də gənclərlə iş, mobillik, iştirak və məlumat vasitəsilə təşviq etmək üçün konkret tədbirlər görülür. | | | | |
| Gənclər siyasəti gənclərin inteqrasiyasını təşviq etmək üçün təhsil siyasətinə doğru atılmış körpünü təmsil edir. | | | | |
| Gənclər siyasəti gənclərin inteqrasiyasını təşviq etmək üçün məşğulluq siyasətinə doğru atılmış körpünü təmsil edir. | | | | |
| Gənclər siyasəti gənclərin inteqrasiyasını təşviq etmək üçün ev və səhiyyə siyasətlərinə doğru atılmış körpünü təmsil edir. | | | | |

**Göstərici 2**

Gənclər siyasətinin məqsədi gəldikləri yerdən asılı olmayaraq gənclərin üzləşdiyi ayrı-seçkiliyin, şiddətin və kənarlaşdırmanın qarşısını almaqdır6.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Gənclərin cəmiyyətdə ayrı-seçkiliyə uğramadan fəal rol oynamasını təmin etmək üçün konkret tədbirlər görülür. | | | | |
| Ayrı-seçkilik və qara yaxılma halları ilə bağlı bəzi gənclərin xüsusi zəifliyi haqqında məlumat mövcuddur və bu problemi aradan qaldırmaq üçün tədbirlər görülür. | | | | |
| İşdə və iş vasitəsilə müxtəlif mənşələrə malik insanlar arasında vəhdəti və müsbət əlaqələri təşviq edən tədbirlər görülür. | | | | |

**Gələcək irəliləyişə imkan verəcək müsbət trendlər**

**Təkmilləşdirmə və mümkün monitorinq sahələri**

6. Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü Maddəsində aydın olaraq göstərilmiş və ya Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ ilə müəyyən edilmiş formada.

# HÜQUQLARA ÇIXIŞ

| Müdaxilə sahəsi |
|---|
| ► Gənclərin hüquqlara çıxışına dair Nazirlər Komitəsinin üzv dövlətlərə CM/Rec(2016)7 saylı Tövsiyəsi<br>► Nazirlər Komitəsinin Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları sahəsində Təhsil haqqında Xartiyasına dair üzv dövlətlərə CM/Rec(2010)7 saylı Tövsiyəsi |

**Göstərici 1**

Gənclər siyasəti bütün gənclərin hüquqlara daha səmərəli şəkildə çıxışını təşviq edir və asanlaşdırır, eyni zamanda hüquqi, inzibati və praktiki əngəlləri aradan qaldırır[7].

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Gənclər siyasəti bütün gənclərin keyfiyyətli təhsilə və təlim fürsətlərinə çıxışı önündə maneələrin aradan qaldırılmasına töhfə verir. | | | | |
| Stabil və anlamlı iş tapmaq üçün qarşılaşdıqları çətinlikləri və üzləşdikləri çox ağır həyatın mənfi nəticələrini aradan qaldırmaq üçün gənclərə dəstək verilir. | | | | |
| Gənclərin sosial və səhiyyə ilə bağlı spesifik ehtiyaclarına cavab vermək üçün tədbirlər nəzərdə tutulub. | | | | |

**Göstərici 2**

Gənclər siyasəti beynəlxalq, milli, regional və yerli səviyyələrdə bütün aidiyyəti sahələrdə əməkdaşlıq vasitəsilə gənclərin hüquqlara çıxışını yaxşılaşdırmaq üçün koordinasiyalı yanaşmanı tövsiyə edir.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Gənclər siyasəti gənclərin insan hüquqları üzrə təhsildən və demokratik vətəndaşlıq təhsildən faydalanmasını təmin edir. | | | | |
| Bütün aidiyyəti siyasət sahələrində gənclərlə bağlı məsələlərlə məşğul olan tərəflər gənclərin hüquqlara çıxışını yaxşılaşdırmaq üçün bir-biri ilə təmasda olur və əməkdaşlıq edirlər. | | | | |
| Gənclərin hüquqlara çıxışını təşviq və təmin edən mövcud və planlaşdırılmış qanunvericilik və proqramlar nəzərdən keçirilir və əlavə dəstəkləyici tədbirlər görülür. | | | | |

| Gələcək irəliləyişə imkan verəcək müsbət trendlər |
|---|
| |

| Təkmilləşdirmə və mümkün monitorinq sahələri |
|---|
| |

7. Digər müdaxilə sahələri (məsələn, iştirak, inteqrasiya) tərəfindən artıq bəhs edilmiş və CM/Rec(2016)7 saylı Tövsiyədə göstərilmiş bu hüquqlara çıxışlar (istər göstəricilər istərsə də dəyərləndirmə meyarları səviyyəsində) haqqında burada bəhs edilmir.

# GƏNCLƏRLƏ IŞ

| Müdaxilə sahəsi |
|---|
| ► Nazirlər Komitəsinin üzv dövlətlərə gənclərlə işlə bağlı CM/Rec(2017)4 saylı tövsiyəsi |
| **Göstərici 1** |
| Gənclərlə keyfiyyətli işin təşkili və gələcək inkişafı yerli, regional və ya milli səviyyədə gənclər siyasətləri vasitəsilə qorunur və pro-aktiv şəkildə dəstəklənir. |

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Gənclərlə işi dəstəkləyən strategiyalar, çərçivələr, qanunvericilik, dayanıqlı strukturlar və qaynaqlar inkişaf etdirilir. | | | | |
| Bütün gənclər üçün gənclərlə işə bərabərhüquqlu çıxış digər sektorlarla səmərəli koordinasiya və əlaqəli siyasətlər vasitəsilə təşviq edilir. | | | | |
| Gənc işçilər və gənclər gənclərlə işin inkişafında fəal iştirak edirlər. | | | | |

| Göstərici 2 |
|---|
| Ödənişli və ya könüllü şəkildə işləyən gənclərin səriştələri yüksək keyfiyyətli işin görülməsini təmin edir. |

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Ödənişli və ya könüllü şəkildə işləyən gənclərin təhsili və təlimi üçün səriştəyə əsaslanan məntiqli və çevik çərçivə hazırlanıb. | | | | |
| İstənilən bu növ çərçivə mövcud praktikanı, yeni trendləri və arenaları və həmçinin gənclərlə işin müxtəlifliyini nəzərə alır. | | | | |
| Gənc işçilər və gənclər də daxil olmaqla maraqlı tərəflər bu çərçivənin hazırlanmasına cəlb edilib. | | | | |

| Gələcək irəliləyişə imkan verəcək müsbət trendlər |
|---|
| |

| Təkmilləşdirmə və mümkün monitorinq sahələri |
|---|
| |

# MOBILLIK

| Müdaxilə sahəsi |
|---|
| ► Qətnamə (91) 20 Avropada gənclərin mobilliyini təşviq etmək və asanlaşdırmaq məqsədilə Gənclər kartı üzrə qismən razılaşma əldə edib.<br>► Gənclərin mobilliyinə dair Nazirlər Komitəsinin üzv dövlətlərə R (95) 18 saylı Tövsiyəsi |

**Göstərici 1**

Gənclər siyasəti xüsusən də Avropaya aidlik hissini təşviq etmək üçün gənclərin mobilliyini dəstəkləyir.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Öyrənmə və kəşf üçün xüsusi siyasət müddəaları, proqramlar və fürsətlər gənclərin sosial, mədəni, təhsil və iqtisadi baxımdan mobilliyini dəstəkləyir. | | | | |
| Gənclərin mobilliyi ilə əlaqəli məlumat və məsləhət xidmətləri mövcuddur. | | | | |
| Mobillik layihələri xüsusən də mədəniyyətlərarası öyrənmə üzrə Avropa Şurası dəyərləri və prinsipləri vasitəsilə Avropaya aidlik hissini təşviq edir. | | | | |

**Göstərici 2**

Gənclər siyasəti keyfiyyət mobilliyi layihələrinin inkişafını dəstəkləyir.

| Özünü dəyərləndirmə meyarı | Bəli | Tam deyil | Xeyr | Yaxşı praktikaya misallar |
|---|---|---|---|---|
| Mobillik layihələri "Gənclik sahəsində öyrənmə mobilliyi üzrə Avropa Xartiyası"nda göstərilmiş təlimatlar kimi keyfiyyət prinsiplərinə cavab verir. | | | | |
| Gənclərin mobilliyi sahəsində biliklər və yaxşı praktikalar ən yaxşı siyasi həll yollarını dəstəkləmək üçün hazırlanır və paylaşılır. | | | | |

**Gələcək irəliləyişə imkan verəcək müsbət trendlər**

**Təkmilləşdirmə və mümkün monitorinq sahələri**

Gəncləri Avropa dəyərləri və xüsusən də Avropa Şurasının əsas dəyərləri (insan hüquqları, qanunun aliliyi, demokratiya) ətrafında bir araya gətirməyə böyük ehtiyac var. Avropa Şurası gənclər siyasətinin paylaşılan Avropa dəyərlərinə və Avropaya aidlik hissinə əsaslanaraq başa düşülməsini həmişə dəstəkləyib.

Məhz bu kontekstdə Avropa Şurasının Gənclərlə iş üzrə daimi Komitəsi (CDEJ) gənclər siyasətinin inkişafı üçün özünü dəyərləndirmə alətini rəsmən qəbul edib.

Bu alət üzv dövlətlərə gənclər siyasəti üçün Avropa Şurası standartlarına uyğunluqlarını özləri tərəfindən dəyərləndirməyə yardım etmək və apardıqları gənclər siyasəti sahəsində irəliləyişlərə baza olmaq məqsədilə hazırlanmışdır. Bu praktiki alətin üzv dövlətlərə və digər tərəflərə yaxşı praktikaları ortaya çıxarmağa və bölüşməyə və illər ərzində əldə edilmiş irəliləyişi dəyərləndirməyə imkan verəcəyinə ümid edirik.

PREMS 110319

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. 47 üzv dövlətdən ibarətdir ki, bunlardan 28-i eyni zamanda Avropa İttifaqının üzvüdür. Avropa Şurasının bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – İnsan Hüquqlarının Müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi üzv dövlətlərdə konvensiyanın tətbiq edilməsinə nəzarət edir.

Youth – Jeunesse

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE